# İbtidai sinif müəllimi: vəzifə borcu və məsuliyyət hissi

*Hər bir ibtidai sinif mğəllimi cəmiyyətimizə xeyirli, savadlı gənclər yetişdirməyi arzu edir. Çünki şagirdlərin bünövrəsi ibtidai sinifdən başlayır. İbtidai sinifdə potensialı güclü olan şagirdlər yuxarı siniflərdə də uğurlu nəticələr əldə edə bilirlər. Hər zaman bu məsuliyyəti öz üzərində hiss edən pedaqoqlardan biri də Cəbrayil rayon Sirik kənd tam orta məktəbin ibtidai sinif müəllimi Kəmalə Quliyevadır. 10 ilden coxdur bu səhədə geniş təcrübə toplamış, uğurlu nəticələrə imza atan şagirdlər yetişdirmiş Kəmalə müəllimlə söhbətimiz müəllimin əsas vəzifə və öhdəlikləri sualı ilə başladı.*

**-İbtidai sinif müəlliminin əsas məsuliyyəti, vəzifə və öhdəlikləri hansılardır?**

-İbtidai sinif müəlliminin ilk növbədə psixoloq, sonra isə pedaqoq kimi vərdiş və təcrübəsi olmalıdır. Öz sənətini ürəkdən sevməli, şagirdlərə doğma övladları kimi yanaşmağı bacarmalıdır. İbtidai mərhələ təhsil təməli sayılır. Bu təməlin möhkəm qoyulmasının məsuliyyəti bizim üzərimizdədir. Biz şagirdin təkcə təlimi ilə deyil, tərbiyəsi ilə də yaxından məşğul olmalıyıq. Çünki gələcək üçün layiqli vətəndaş hazırlamaq məsuliyyətini də məhz müəllimlərin öhdəsindədir. Müəllim uşaq ədəbiyyatını gözəl bilməli, milli-mənəvi dəyərlərə yiyələnməli, sinifdəki bütün uşaqların psixologiyasına bələd olmalıdır. Bütün bunları bilmədən ibtidai siniflərdə işləmək və uğur əldə etmək olmaz. Əsas öhdəlik və vəzifələrimiz budur ki, şagirdləri ibtidai sinifdən yuxarı siniflərə savadlı hazırlamalıyıq. Onların fiziki hazırlıqları, nitqləri gözəl olmalıdır. Onlar analiz, sintez etməyi bacarmalı, düşünmə qabiliyyətləri olmalıdır.

**-Kiçikyaşlı məktəbliləri oxumağa həvəsləndirmək mürəkkəb və çətin prosesdir. Bu vəzifənin öhdəsindən gəlmək üçün hansı metodları tətbiq edirsiniz?**

-Onlara ilk növbədə şəxsiyyət kimi yanaşıram. İstəyirəm ki, bir böyük kimi məndən çəkinməsinlər, əksinə öz yaşıdları kimi davransınlar. Uşaq birinci sinfə gələn gün onun əlinə qələm-dəftər



vermək düzgün deyil. Onları bu çətin prosesə hazırlamaq üçün əyləncəli şərait formalaşdırır, onları fərqli vasitələrlə dərs prosesinə həvəs və marağı təmin etməyə çalışıram.

**-İbtidai sinif şagirdləri, xüsusən birincilər adətən tez yorulur. Bu yorğunluğu çıxarmaq və onların dərsə diqqətini təmin etmək üçün hansı üsullardan istifadə edirsiniz?**

-Əlbəttə, birincilər dərsdə tez yorulur, yuxuları gəlir və bu zaman diqqətləri yayınır. Adətən beş dəqiqəlik fasilə edib idman hərəkətləri etdirir və ya əyləncəli oyunlar təşkil edirəm. Bəzən onlara nəğmə oxudur, bununla da yorğunluqdan qurtulmalarına çalışıram. Müşahidələrimə əsasən deyə bilərəm ki, məktəbə tez getməyə başlayan uşaqlar ev tapşırıqlarını yerinə yetirməkdə çətinlik çəkirlər. Çünki onlar diqqətini uzun müddət cəmləyə bilmir. Bunun üçün də mən tapşırıqları uşaqların yaş və qavrama səviyyəsinə uyğun verirəm. Yəni, təlim zamanı bütün şagirdlərə fərdi yanaşılmalıdır. Uşaqlara hədsiz dərəcədə çox dərs, tapşırıq da vermək olmaz. Misal üçün, 1-ci sinif şagirdi ilə 30 dəqiqədən çox məşğul olsaq, istədiyimiz nəticəni ala bilməyəcəyik. Buna görə də təlim prosesində şagirdlərimlə bağlı hər bir detalı, məqamı nəzərə almağa çalışıram.

**-Dərsliklərin keyfiyyəti sizi qane edirmi?**

-Əvvəlki illərə baxanda, hazırda müsbət dəyişikliklər çoxdur. Əvvəlki dərsliklərdə öyrədici materiallar yox dərəcəsində idi. Tam razı salmasa da dərsliklərin keyfiyyətini qənaətbəxş saymaq olar.

**-Məktəbdə hökm sürən atmosfer, rəhbərliyin müəllimlərə münasibəti ilə bağlı nə deyə bilərsiniz?**

-Məktəbin pedaqoji kollektivi arasında işgüzar və mehriban ab-hava hökm sürür. Mən neçə ildir ki, bu məktəbdə çalışıram, heç kimdən incikliyim olmayıb. Əgər kollektivdə mehriban, səmimi otmosfer varsa, demək bu, məktəbin direktorunun xidmətidir. Əvvəllər direktorumuz Əkbər müəllim idi, məktəbdə cox işgüzar və səmimi bir mühit formalaşdırmışdı. Onun layiqli davamçısı Adil Veysəlov də bu mehriban münasibətləri qoruyub saxladı, işgüzarlıq, səmimiyyət və məsuliyyətin bir arada olduğu münasibətləri daha da inkişaf etdirdi. Mehribanlıq, səmimiyyət, işgüzarlıq olan yerdə isə uğurların davamlı olması mütləqdir.

**Hüsniyyə Əlizadə**